**Ülviyyə ƏMRAHOVA**
**AMEA Nizami Gəncəvi adına**
**Milli Azərbaycan Ədəbiyyatı Muzeyi**
**ulyayusif31@gmail.com**

# ABDULLA FARUQUN YARADICILIĞINDA SİYASİ LİRİKA

Azərbaycan ədəbiyyatı mövzu baxımından hər zaman zəngin olmuşdur. Lakin heç bir dövrdə ədəbiyyatımız XX əsrdə olduğu qədər böyük siyasi hadisələrlə, kütləvi hərəkatlarla, xalq həyatı ilə səsləşməmişdir. İki böyük cahan müharibəsi, Rusiya imperiyasının süqutu ilə çar əsarətindən xilas olmaq, iki illiyə də olsa müstəqilliyin dadına varmaq, sovet sosialist respublikasının 71 illik əsarətində yaşamaq kimi böyük siyasi hadisələrin fonunda Azərbaycan ədəbiyyatı sürətlə inkişaf edib zənginləşirdi. Bu dövrün yazıçı və şairlərinin bir çoxu zamanın nəbzini tutaraq günün zəruri-ictimai məsələləri ilə məşğul idi. Belə şairlərdən biri də Abdulla Faruq olmuşdur.

Abdulla Faruqun yaradıcılığında əsasən siyasi lirika üstünlük təşkil edir. Onun bir çox əsərlərində dünyanın siyasi mənzərəsi, beynəlxalq hadisələr öz bədii əksini tapmışdır. Şairin yaradıcılığını nisbi olaraq iki yerə ayırsaq, əsərlərinin bir qismində inqilabın, azadlığın təntənəsi, sovet adamlarının qurub-yaratmaq eşqi daha çox diqqəti cəlb edir. A.Faruq realist şair idi. Onun qələmə aldıqları gerçək həyatın içərisindən gördükləri, daha dəqiq desək, özünün mübarizələrlə dolu keçən həyatının aynası idi.

Həyat mübarizə, dünya cəbhədir,
İnsan bu dünyada çarpışıb gedir.
Şərəflə ölənlər yaşayır ancaq,
Olur igidlərin adları bayraq.

Şair hələ gənc yaşlarından Sovet Azərbaycanının uğurlarını, yenilik duyğusu ilə yaşayan fədakar insanları və onların parlaq əməllərini, ideologiya uğrunda ölümdən belə qorxmayanları məhəbbətlə tərənnüm edirdi.

Abdulla Faruqun yaradıcılığının digər qismi isə müharibəyə həsr olunmuş şeirlərdən ibarətdir. Müharibə mövzusunda yazılmış şeirlərində əsasən sovet ordusunun gücü-qüvvəti ön plana çəkilmiş, həmçinin müharibənin gətirdiyi fəlakətləri, insanların düşdüyü çətin vəziyyəti təsvir etməyə çalışmışdır. O, vətənini, millətini böyük məhəbbətlə sevən bir vətənpərvər idi. Şairin belə əsərlərində hər zaman cəsur bir döyüşçü, əsgər ruhu hiss olunur. Bu, təsadüfi deyil, çünki A.Faruq 37 illik qısa həyatında iki böyük cahan müharibəsinə həm şahidlik etmiş, həm də müharibənin iştirakçısı olmuşdur. Nakam şair həyata gözlərini də döyüş meydanında yummuşdur.

Abdulla Faruqun ilk şeirlər kitabı 1930-cu ildə "Üfüqlər qızaranda" adı altında nəşr olunmuşdur. Burada toplanmış şeirlərin bir çoxu əsasən şahlıq rejiminin devrilməsi, sovet hakimiyyətinin yaranması, kollektiv təsərrüfatın insanlar arasında yaratdığı birlik, işıqlı gələcəyə inam mövzusundadır. "Şənlik axşamı", "Tarlada", "Tramvay", "Bir Mayıs", "Xan qalası" belə şeirlərdəndir. "Üfüqlər qızaranda" şeirlər toplusundakı maraqlı şeirlərdən biri də özündə bir sıra tarixi faktları əks etdirən "Ağcaqum çöllərində" şeiridir. Şeir 26 Bakı komissarına və onların ingilislər tərəfindən güllələnməsinə həsr olunub.

Abdulla Faruqun digər şeirlər toplusu olan "Talış dağları" kitabında da yer alan şeirlər əsasən inqilabi, döyüş ruhlu və şura hökumətinin fəaliyyətindən bəhs edən əsərlərdir. "Talış dağları" poeması, "Qızıl snayper", "Rot Front", "Partizanlar" belə şeirlərdəndir. "Rot Front" şeirində A.Faruq Avropada, xüsusilə Almaniyada baş verən bir çox siyasi hadisələrə toxunur. Hitlerin zülmündən əziyyət çəkən xalqı Karl Marks və Engelsin

ideologiyası altında birlik və bərabərliyə səsləyir. O, yalnız öz millətini deyil, bütün dünya xalqlarını azad və firavan görmək arzusunda idi.

**Ulviyya Yusifova**

## POLITICAL LYRICS IN ABDULLA FARUGS CREATIVITY

***Summary***

First of all, here is talked about political events that happened in the twentieth century and its influence to the literature of the period. We thouch the importance of new ideologies, new sturctures and wars which influenced to the literature of the period from the side of theme richness. Besides, here is also shown about the using of social and political themes in Abdulla Farigs creativity. The attitude of poet to the new and international events, to the war both in our country and in the world is given a view. Abdulla Farugs poems that are dedicated to these themes are mentioned in the article.